*“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 10 yanvar 2015-ci il № 2 (1918) | Qiyməti 25 qəpik

## Ali Baş Komandan İlham ƏLİYEV:

# “İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan Ordusu istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər”

## Hava Hücumundan Müdafiə Qoşunlarının döyüş atışlı təlimləri keçirilib





***Yanvarın 7-də Silahlı Qüvvələrin yeni tədris ilinə hazırlığının yoxlanılması məqsədilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrinə əsasən, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının qüvvə və vasitələri qəfil həyəcan siqnalı ilə döyüş hazırlığı vəziyyətinə gətirilib.***

Ordu quruculuğu bu gün Azərbaycan rəhbərliyinin ən çox önəm verdiyi strateji və dövlət əhəmiyyətli məsələlərdəndir. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev ordu quruculuğu məsələsini dövlətin prioritet vəzifəsi elan etmişdir. Dövlətin ən vacib atributlarından olan Silahlı Qüvvələrin qarşısında taleyüklü vəzifələr durur və bunları çiyinlərinə götürə bilməsi üçün orduya yüksək səviyyədə diqqət yetirilməsi günümüzün doğurduğu aktuallıqdır.

Ölkəmizdə dövlət rəhbərliyi səviyyəsində ordu quruculuğuna göstərilən qayğı və diqqət Silahli Qüvvələrimizin ən müasir hücum və müdafiə silahları ilə təchiz edilməsində, döyüş hazırlığının günü-gündən yüksəldilməsində özünü büruzə verir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarında ordu quruculuğunun ölkə üçün prioritet məsələ olduğunu dəfələrlə vurğulayıb. Dövlət rəhbərliyi səviyyəsində Silahlı Qüvvələrin inkişafına verilən dəyər bir daha onu göstərir ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının dinc yolla qaytarılması mümkün olmadığı və sülh danışıqları heç bir nəticə vermədiyi halda ölkəmizin ərazi bütövlüyünün digər vasitələrlə bərpa edilməsi fikri yetərincə düşünülmüş və qətidir. Təkcə onu qeyd etmək yerinə düşər ki, 2015-ci ilin dövlət büdcəsindən ordu quruculuğuna 5 milyard dollara yaxın vəsaitin xərclənməsi nəzərdə tutulur. Bu, bütövlükdə Ermənistanın ümumi büdcəsindən iki dəfə çoxdur.

Prezident İlham Əliyev Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə Azərbaycan xalqına təbrikində bir daha ordu quruculuğu məsələsinə toxunmuş, düşmən ölkənin rəhbərliyinə səslənərək işğalçılıq siyasətindən əl çəkməyə çağırmışdır: "İşğalçı dövlət bilməlidir ki, qüdrətli Azərbaycan Ordusu istənilən vaxtda öz ərazi bütövlüyünü bərpa edə bilər. Sadəcə olaraq biz hələ ümid edirik ki, danışıqlar prosesi müsbət nəticə verə bilər və bu ümidi gücləndirən amillər kifayət qədər çoxdur. Bizim siyasi gücümüz, iqtisadi potensialımız, qüdrətli ordumuz var".

Ordu quruculuğunda müasir standartlara uyğun Silahlı Qüvvələrin formalaşdırılmasına üstünlük verən Azərbaycan rəhbərliyi Hərbi Hava Qüvvələrinin inkişafını da daim nəzarətdə saxlayır.

Zenit-raket komplekslərinin modernləşdirilməsi nəticəsində döyüş texnikasının səmərəliliyi və atəş imkanları artırılıb. S-300, "Osa" 9A33BM-3 zenit-raket komplekslərinin alınması ölkəmizin hava hücumundan müdafiə qabiliyyətinin möhkəmlənməsi baxımından böyük önəm kəsb edir. Hərbi Hava Qüvvələrinin modernləşdirilmiş döyüş texnikalarında rəqəmsal məlumat mübadiləsinin təmin edilməsi üçün yeni rabitə avadanlıqları da ordumuzun sərəncamına verilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin verdiyi xəbərə görə, Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının həyəcan siqnalı ilə döyüş hazırlığı vəziyyətinə gətirilməsi onların yüksək döyüş qabiliyyətinə malik olduğunu nümayiş etdirib.

Hava Hücumundan Müdafiə Qoşunları tərəfindən döyüş tapşırığının yerinə yetirilməsi təlim mərkəzində "Osa" 9A33BM-3 zenit-raket komplekslərinin istifadəsi ilə həyata keçirilib.

Təlimin ssenarisinə əsasən, hava məkanını pozan şərti düşmən aşkarlanaraq izlənməyə götürülüb və təlim-döyüş tapşırığının yerinə yetirilməsi zamanı kiçik həcmli, aşağı yüksəklikdə, qrup halında uçan hədəflər raket zərbələri ilə dərhal məhv edilib.

Təlimlərdə qarşıya qoyulan vəzifə və tapşırıqlar müvəffəqiyyətlə yerinə yetirilib, şəxsi heyətin döyüş hazırlığı, bacarığı və qarşılıqlı fəaliyyəti Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən yüksək qiymətləndirilib.

Döyüş hazırlığı sahəsində atılan ardıcıl addımlar və rəsmi məlumatlardan da kifayət qədər bəlli olduğu kimi, qazanılan nailiyyətlər bir daha göstərir ki, ordumuzun gücü-qüdrəti yetərincədir və Vətənin bir parçası olan torpaqlarımızı düşmən işğalından azad etməyə qadirdir.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

## BBC Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində vəziyyət haqqında reportaj yayımlayıb

***BBC telekanalı Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttindəki gərgin vəziyyət haqqında reportaj yayımlayıb. Reportaja belə bir ad verilib: "Dağlıq Qarabağda sərhəddə atışma halları çoxalır. Ermənistan və Azərbaycan yeni müharibəyə başlamağa hazırlaşırlarmı?".***

Reportajda təmas xəttində yerləşən Tərtər rayonunun Qazyan kəndinin sakinlərinin ağır vəziyyətindən bəhs edilir. Beynəlxalq Qırmızı Xaç Komitəsi kənd sakinlərindən birinin evinin güllələrdən qorunması üçün onun dövrəsinə hasar çəkib. Həmin sakin deyir ki, atışma zamanı bu, kifayət etmir.

Reportajda 20 ildən artıq davam edən, Dağlıq Qarabağın və ətrafdakı yeddi rayonun Ermənistan tərəfindən işğal edilməsinə gətirib çıxarmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi haqqında informasiya verilir. Müxbir qoşunların təmas xəttində indiki vəziyyət barədə söhbət açaraq qeyd edir ki, keçən ilin noyabr ayında Azərbaycan Silahlı Qüvvələri Ermənistanın döyüş helikopterini vurandan sonra gərginlik daha da artıb. Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev həmin helikopterin uçuşunun guya təlim xarakterli olması barədə erməni tərəfinin bəyanatlarını qətiyyətlə təkzib edir. Azərbaycan xarici siyasət idarəsinin nümayəndəsi deyir: "Ermənistan helikopteri Azərbaycanın hava məkanını pozduğuna görə vurulub. Ermənilər hər dəfə bu cür təxribatlar törədəndə, danışıqlar prosesini pozmaq məqsədi güdürlər".

Britaniya teleradio yayım korporasiyasının bu reportajı məktəblərin birində dərs zamanı çəkilmiş kadrlarla bitir. Müəllimə və onun ardınca balaca uşaqlar işğal edilmiş rayonların adlarını çəkir və Vətəni sevəcəklərinə, zəbt olunmuş torpaqların nəyin bahasına olursa-olsun, qaytarılacağına and içirlər.

**AzərTAc**

## Azərbaycan dövləti soydaşlarımızın erməni girovluğunda qalmasına imkan verməyəcək

***Erməni girovluğunda olan Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, 7 beynəlxalq təşkilata, o cümlədən BMT-nin baş katibinə, Avropa Şurasının, Avropa İttifaqının və ATƏT-in rəhbərlərinə, Beynəlxalq Qızıl Xaç Komitəsinin prezidentinə, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığına, beynəlxalq insan hüquqları təşkilatlarına rəsmi müraciət göndərmişik.***

AzərTAc xəbər verir ki, bu sözləri Baş nazirin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov yanvarın 6-da Mingəçevir şəhərində məcburi köçkünlər üçün salınan yeni məhəllədə tikinti işlərinin gedişi ilə tanış olduqdan sonra jurnalistlərə müsahibəsində deyib. Əli Həsənov artıq həmin müraciətlərə bütün beynəlxalq təşkilatlardan rəsmi cavabların gəldiyini bildirib. Diqqətə çatdırıb ki, həmin cavabların arasında beynəlxalq hüquq normalarına uyğun olmayan fikirlər də, məsələyə müsbət yanaşmalar da var. Beynəlxalq qurumların bəziləri məsələyə formal, bürokratik şəkildə yanaşıb. Bəziləri isə əksinə, problemə obyektiv yanaşaraq ermənilərin bu əməllərini pisləyir və beynəlxalq hüquq normalarına zidd hərəkət kimi qiymətləndirirlər.

Əli Həsənov deyib: "Bizim erməni girovluğunda olan soydaşlarımız torpağını, Vətənini, xalqını sevən insanlardır. Onlar ölümdən qorxmadan bu gün yağı düşmən tapdağı altında olan Kəlbəcərə - öz doğma yurd-yuvalarını, ata-babalarının məzarlarını, kəndlərini ziyarət etməyə getmişdilər. Biz bununla bağlı həqiqətləri bütün dünya ictimaiyyətinə çatdırmışıq. Ancaq ermənilər yenə də faşist əməllərindən əl çəkmir, bütün beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqda davam edirlər. Erməni millətçiləri artıq 100 ildir ki, bütün dünyada guya türklər tərəfindən soyqırımına məruz qalmaları ilə bağlı təbliğat aparmaqla məşğuldurlar. Əgər həqiqətən də beynəlxalq təşkilatlar regionda dayanıqlı sülhün bərqərar olunmasını istəyirlərsə, erməniləri bu sərsəm xülyalarından əl çəkməyə məcbur etməlidirlər. Ancaq bu gün biz real həyatda bunun əksini müşahidə edirik. Beynəlxalq təzyiqlə üzləşməyən ermənilər öz məqsədlərinə çatmaq üçün çirkin əməllərini davam etdirirlər. Mənə elə gəlir ki, bu əməllərə göz yuman və erməniləri açıq şəkildə müdafiə edən beynəlxalq təşkilatlar bizim girovlarımızla bağlı məsələnin də müsbət həllinə kömək etməyəcəklər.

Baş nazirin müavini deyib ki, ona görə də bu gün bizim qlobal problemlərimizi, o cümlədən Dağlıq Qarabağ münaqişəsini xalqımızdan, dövlətimizdən, Prezidentimizdən başqa heç kim həll edəsi deyil. Bu məsələdə güvənc yerimiz xalqımızın birliyi və Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli addımlarıdır. Dövlətimizin başçısı bu gün girovluqda olan şəxslərin azad edilməsi məsələsi ilə mütəmadi məşğuldur. Məndə tam əminlik yaranıb ki, Ramil Səfərovu ölkəmizə qaytaran Prezidentimiz hazırda erməni girovluğunda olan Dilqəm Əsgərovu və Şahbaz Quliyevi düşmənin caynağından azad edəcək. Onlar hazırda Şuşada, bizim torpaqlardadır. Bizim yerli qeyri-hökumət təşkilatları, hüquq müdafiə təşkilatları azərbaycanlı girovlarla bağlı Avropa Şurasına, Avropa İnsan Haqları Məhkəməsinə müraciət etmək üçün təşəbbüs irəli sürüblər. Biz hökumət olaraq hazırda bu işdə onlara kömək edirik.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri deyib ki, Azərbaycan dövləti erməni girovluğunda olan soydaşlarımızın azad edilməsi istiqamətində tələbini davam etdirəcək və bununla bağlı bütün hüquqi addımlar atılacaq. Biz hazırda girovların başqa bir ölkəyə ekstradisiya edilməsi məsələsini müzakirə edirik. Əgər beynəlxalq təşkilatlar kömək edə bilsələr, onlar ermənilərin əlindən alınaraq başqa ölkənin ərazisinə keçiriləcək. Mən əminəm ki, Azərbaycan dövləti onların erməni girovluğunda qalmasına imkan verməyəcək.

*Ön xətdən reportaj*

# Vətən etibarlı əllərdədir

***Bu dəfə yolum ucqar bölgələrdən birinə - Gədəbəy rayonunadır. Avtobusda 9 saatlıq yol insanın gözünə yorucu görünə bilər. Amma bizim məqsədimiz müharibənin ağrılı günlərinin şahidi olan bu bölgədə Vətənə xidmət edən gənclərlə görüşmək, onların fədakar xidməti və qayğıları ilə maraqlanmaqdır...***



Yasamal aşırımını qalxırıq. Qatı duman təbiəti seyr etməyə mane olur. Lakin yuxarılarda duman azalır, geriyə boylananda isə göz oxşayan mənzərənin şahidi oluruq. Yaz-yay aylarında bu dağlar yaşıl örpəyə bürünür. Qışda isə yaşıllıq bəyaz donla əvəz olunur. Bu yerlər hər fəsildə füsunkar gözəlliyi ilə diqqət çəkir. Gədəbəyin təbiəti elədir ki, yağışın, qarın, çovğunun, sel-suyun dəqiq vədəsini bilmək olmur. Dəxli yoxdur, hansı fəsil olursa-olsun...

Uzun-uzadı yollar arxada qalır, artıq hərbi hissədəyəm. Burada son vaxtlar həyata keçirilən əsaslı dəyişikliklər elə nəzarət-buraxılış məntəqəsindən hiss olunur. Hər tərəfdə abadlıq və yenidənqurma işləri aparılır.

Rüstəm Məmmədov şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ilə məşğul olan məsul zabitlərdəndir. Hər gün pozulan atəşkəsdən, qorxmaz əsgərlərdən ağızdolusu danışan zabitə görə, ordumuzun gücünü artıran, hərbçilərimizin döyüş əhval-ruhiyyəsini yüksəldən əsas amil Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin hərbi hissələrə, xüsusən cəbhə xəttinə ardıcıl səfərlər etməsidir.

- Ön xətdə xidmət edən əsgər və zabitlərimizlə hər görüşündə onlara qələbə əzmi aşılayan Ali Baş Komandan bununla da orduya diqqət və qayğısını əyani şəkildə nümayiş etdirir, - deyə təcrübəli zabit qeyd edir.

Sonra polkovnik-leytenant Oruc Abdullayevlə görüşüb söhbət edirik. Söhbətimiz zamanı o, sabitlik, dinamik iqtisadi inkişafla yanaşı, güclü ordu quruculuğunun müasir Azərbaycanı xarakterizə edən əsas amillərdən olduğunu qeyd edir. "Son illər ölkəmizin iqtisadi qüdrətinin artması sosial məsələlərin həllinə və ordumuzun möhkəmlənməsinə geniş imkan yaradıb. Dövlət büdcəsindən hərbi sahəyə ayrılan xərclərin dəfələrlə artırılması ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına yol açıb. Azərbaycan Silahlı Qüvvələri hazırda dövlət rəhbərliyinin qayğısı sayəsində özünün müasir inkişaf mərhələsini yaşayır", - deyə zabit bildirir.

Təcrübəli hərbçi söhbətinə davam edərək qeyd edir ki, Azərbaycanın hərbi üstünlüyü heç də birdən-birə, təsadüfən meydana gəlməyib. "Son illər Azərbaycan rəhbərliyi belə bir düsturu özünün əsas fəaliyyət prinsipinə çevirib ki, ölkənin uğurlu inkişafını müəyyən edən amillər içərisində iqtisadi potensial və güclü ordunun mövcudluğu ön plandadır. Müasir səviyyədə qurulan ordu həm müstəqilliyin möhkəmlənməsində, həm də ölkənin bölgədə geopolitik güc mərkəzinə çevrilməsində önəmli rol oynayır. Ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "... Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq... Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu əhəmiyyətli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik. Azərbaycan müharibə şəraitində yaşayır və belə olan halda ilk növbədə ordu quruculuğuna böyük diqqət göstərilməlidir".

Ürəkaçan və xoş söhbətlərdən sonra Vətən keşikçiləri ilə görüşmək üçün döyüş postlarına yollanırıq. Yolboyu sürücü ilə söhbət edirik. Gədəbəydə dünyaya göz açan Çingiz İsrafilov dağlara yaxşı bələd olduğunu, bu yolları əlinin içi kimi tanıdığını bildirir. Bunu isə uşaqlığının bu dağlarda keçməsi ilə əlaqələndirir. Asfalt yolla xeyli irəlilədikdən sonra torpaq yola çıxırıq. Çətin keçilən dağ yollarında sürücü avtomobili məharətlə idarə edir, öz peşəsinin mahir ustası olduğunu büruzə verir.

Xeyli təpə, dağ aşdıqdan sonra düşmənlə üz-üzə dayanan əsgər və zabitlərimizlə birgəyik. Müasir əsgər yataqxanası, təmiz səngərlər, ayıq-sayıq döyüş növbətçiliyi, səliqə-sahman hər addımda nizam-intizamdan xəbər verir. Döyüşçülər müxtəlif atıcı silahlarla təmin olunublar. Onlar düşmənlə üz-üzə dayanmağın məsuliyyətini dərk edir, sayıqlığı əldən vermirlər.

Postda müddətdən artıq xidmət edən hərbi qulluqçu Anar Əliyev bizi qarşılayır. Müvafiq kurs bitirərək həyatını ordu ilə bağlayan manqa komandirinə görə, ön xətdə xidmət etmək məsuliyyətli və şərəflidir. Təmas xəttində olmalarına baxmayaraq yuxarı komandanlığın diqqətindən razılıqla danışan çavuş son



zamanlar göstərilən diqqət və qayğıdan söz açdı. Qeyd etdi ki, məişət şəraitinin yaxşılaşdırılması, ərzaq təminatının gücləndirilməsi əsgərlərdə ruh yüksəkliyi yaradır. Manqa komandirinə görə, şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı yüksək səviyyədədir. Hər kəs Vətənimizin müdafiəsində iştirak etməyin mənəvi məsuliyyətini aydın dərk edir və bu vəzifəni yerinə yetirməkdən qürur duyur.

Növbəti həmsöhbətlərim isti-soyuq bilmədən hər mövsümdə düşmənlə üzbəüz dayanan əsgərlərimizdir. Yaradılan nümunəvi şəraitə görə razılığı onların da dilindən eşidirəm. Saatlı rayonundan hərbi xidmətə çağırılan əsgər Təhmasib Abdullayev deyir ki, Gədəbəy dağlıq bölgədir, gözəl təbiəti var. Bütün bu gözəlliklərə baxmayaraq qış aylarında hava çox soyuq olur. Gecə saatlarında güclü şaxta az qala insanın qanını damarda dondurur. Lakin əşya-ərzaq təminatı baxımından heç bir çatışmazlıq yoxdur. İsti geyimlə, yeni əsgər yataqxanası ilə təmin olunmuşuq. Yaxşı xidmət etməyimiz üçün hər cür şərait yaradılıb.

Ağdam rayonundan hərbi xidmətə çağırılmış bacarıqlı döyüşçü Eşqin Bağırovla söhbətimi davam etdirirəm. Əsgər ermənilərə nifrətindən danışır:

- Ağdam torpağında dünyaya göz açmışam. Uşaqlığımdan güllə səsi eşitmişəm və ata-babalarımızın mənfur düşmənimiz olan ermənilər haqqında dediklərindən sonra torpaqlarımızı qaytarmaq uğrunda gedən döyüşlərdə iştirak etməyi arzu etmişəm. İndi ermənilərlə üzbəüz dayanmışam, əlim tətikdə Ali Baş Komandanın əmrini gözləyirəm.

Əsgər Vüqar Qasımov isə doğulub boya-başa çatdığı Hacıqabuldan Vətənin keşiyini çəkməyə gəldiyini bildirərək deyir:

- Bütün əsgər yoldaşlarımızla tək bir məqsədimiz var: Torpaqlarımızı azad etmək... Hər gün döyüş növbətçiliyinə çıxarkən silahın nişangahından düşmənə nəzarət edirəm. Torpaqlarımızın 20 faizinin erməni işğalında olduğunu görmək çox ağırdır. Buna görə də hər addımda düşmənə layiqli cavab verməyə hazırıq.

Əsgərlər Elşən Əfəndiyev, Sərxan Nəcəfov, Cavid Tağıyev və başqaları da deyirlər ki, burada hər birimizin xidmət etməsi üçün hər cür şərait yaradılıb. Onlar Vətənə xidmət etməyin şərəfli olduğunu, atəşkəs pozulduqda isə qarşı tərəfi cavab atəşi ilə dərhal susdurduqlarını qeyd edirlər.

Əsgərlərlə söhbətimdən bir daha əmin oluram ki, soyuq, şaxtalı havalarda belə Vətənimiz etibarlı əllərdədir. Elşən, Sərxan, Cavid, Vüqar... kimi cəsur əsgərlərimiz var. Deməli, Vətən torpaqları layiqincə qorunacaq, işğalda olan torpaqlarımız tezliklə azad olunacaq!

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Qarlı dağların o üzündə...

***Dünən, srağagün açıq olan havanın bu gün səhər ertədən qaşqabağı sallanmışdı. Səmanın dərinliyində bir yerdə dayanmayıb dolaşan qara buludlar həmişəkindən çox zəhmli görsənirdi. Təqvimdə artıq qışın ilk günləridir. İndi təbiətə qış hökmranlıq edir. Soyuq külək əsir, havadan qar qoxusu gəlir. Enli kəmər kimi dağların belinə dolaşan yollarla hərbi hissəyə gedirik. Hiss olunur ki, sürücümüz öz peşəsinin ustasıdır. O, kəskin döngəli yollarda avtomobili məharətlə idarə edir.***



Döyüş yolu qoynunda dünyaya göz açdığı Zəngilan rayonundan başlanan zabit Nazim Abbasovla ətrafdakı gözəlliyi seyr edə-edə irəli gedirik. Dağların əzəmətini görən yol yoldaşım deyir ki, bu yerlərin hər qarışı mənə erməni işğalçılarının tapdağı altında qalmış doğma ocaqlarımızı xatırladır. "Gecə-gündüz ata-baba yurdumuz yuxularımdan çıxmır. Neçə illərdir o yerlərin həsrətini çəkirik. Buna görə də erməni qəsbkarlarına nifrətim sonsuzdur".

Üzü yuxarı qalxdıqca hava bir az da soyuyur və qar yağmağa başlayır. Başı göylərə söykənən dağların zirvələri, ətəkləri ağ dona bürünüb. İrəlilədikcə yol getmək çətinləşir. Hava şaxtalı olduğundan yağan qar ərimir, təkərlərin altında qalıb donur, bərkiyir. Yolda sürüşkənlik yaranır. Dağlar, dərələr yavaş-yavaş ağ örpəyə bürünür. Evlərin damından burum-burum tüstü qalxır. Ətrafda gözəl qış mənzərəsi var.

Növbəti sərt döngəni keçəndən sonra qarşımızda geniş bir meydan açılır. Bu yerlərin hər qarışına yaxından bələd olan zabit Nazim Abbasov "artıq gəlib çatdıq", - deyir. Dağlar qoynunda xidmət edən əsgərlər yolun qarını təmizləyib ətrafda səliqə-sahman yaratmışdılar. Hərbi hissədə xidmət öz axarı ilə gedirdi.

Həmişə ünvanına xoş sözlər eşitdiyim zabit Polad Həşimovla görüşümüz yaddaqalan oldu. O, tabeliyindəki zabitlərə müvafiq əmr və tapşırıqlar verdikdən sonra bizimlə də söhbətə vaxt tapdı. Zabit və əsgərlərin döyüş hazırlığından söz açdı. Bildirdi ki, bu gün üzərimizə düşən ən mühüm vəzifələrdən biri torpaqlarımızı düşməndən müdafiə etməkdir. Zabit və əsgərlərimiz tapşırıqların öhdəsindən bacarıqla gəlməyə çalışırlar. Əsgərlərimiz, bir qayda olaraq, mövqelərində ayıq-sayıq dayanırlar. Erməni işğalçıları atəşkəs rejimini pozmağa cəhd göstərən kimi Azərbaycan əsgərinin sərrast atəşinə tuş gəlib geri çəkilir. Düşmən hər addımda hiss edir ki, qarşısında döyüş hazırlığı yüksək olan qartal kimi vüqarlı Azərbaycan əsgəri dayanıb. Əsgərlərimizin dəqiq zərbələrindən qorxan erməni qəsbkarları atəşkəs rejimini pozmağa risk etmirlər. Hava şəraitindən asılı olmayaraq, şəxsi heyət həmişə xidmətində uğur qazanır, torpaqlarımızın keşiyində ayıq-sayıq dayanır.

Kapitan Rafiq Rzayevlə qərargahdan çıxıb bu şaxtalı, qarlı havada təlim keçən əsgərlərin yanına yollanırıq. Axşamdan yağan qar ayağımızın altında eyni ahənglə "xarr-xarr" səsləri çıxarırdı. Yolboyu söhbətdən öyrəndim ki, zabit Rafiq Rzayev Laçın torpağında dünyaya göz açıb. Neçə illərdir doğma torpaqlarından didərgin düşüb, dədə-baba yurdunun həsrətiylə yaşayır.

- Qarşımızda dayanan başlıca vəzifə, əlbəttə, erməni qəsbkarlarının tapdağı altında qalan torpaqlarımızı azad etməkdir. Bu məqsədlə də daim döyüş hazırlığımızı artırırıq. Bu gün tam inamla deyə bilərəm ki, əsgərlərin həm mənəvi-psixoloji, həm də döyüş hazırlığı yüksək səviyyədədir. Biz erməni qəsbkarlarını asanlıqla məğlub edib, işğal altında olan torpaqlarımızı azad edəcəyik. Gün gələcək ki, üçrəngli bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq. Gün gələcək ki, qaçqınlar doğma ocaqlarına dönəcəklər.

Biz təlim meydanına çatanda dağları, dərələri ağ dona bürüyən qar səngimişdi. Göydəki buludlar bir az seyrəlmişdi. Şəxsi heyət geniş meydan boyu məşq edərək təcrübə və səriştəsini artırırdı. Qarın yağması sanki onları bir az da həvəsləndirmişdi. Budur, sıra ilə dayanan əsgərlər eyni vaxtda cəld hərəkətlərlə silahlarını hədəfə tuşlayaraq döyüş vəziyyətini alırlar. Sonra irəli atılaraq özlərinə daha əlverişli mövqe seçirlər. Komanda verən zabit əsgərlərin hərəkətlərinə göz qoyur, yerindəcə lazımi məsləhət və tövsiyələrini verir.

- Şəxsi heyət təlim-məşqlərdə fəal iştirak edərək döyüş təcrübəsini artırır, - deyə əsgərlərə dərs keçən kapitan Xaliq Hüseynov sözə başladı. - Havanın qarlı olması onları daha da ruhlandırır. İlk dəfə deyil ki, əsgərlər qarlı havada məşğələ keçirlər. Payızın son günlərindən başlayaraq bir neçə dəfə bu bölgəyə qar yağıb. Çalışırıq ki, əsgərlərimiz istənilən hava şəraitində təlim keçib kifayət qədər təcrübə toplasınlar. Çünki torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər istənilən vaxt başlaya bilər. Deməli, biz hər an döyüşə hazır olmalıyıq. Keçirilən təlim-məşqlər bir daha göstərir ki, şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. Biz döyüşlərdə yalnız qələbə əzmi ilə vuruşacağıq. Təlim-məşqlərdə fərqlənən əsgərlərdən Rüfət Səmədov, Cavid Mursalov, İslam Məmmədov, Rəhman Balakişiyev, Zamil Rəhimov, Ülvi Ramazanov və başqalarının adlarını xüsusilə qeyd etmək istəyirəm. Bu əsgərlər yorulmaq bilmədən daim döyüş hazırlıqlarını artırırlar.

Şəxsi heyətin məşğələsi öz axarı ilə davam edir. Əsgərlər müxtəlif mövqelərdən, müxtəlif vəziyyətlərdən hədəfə atəş açmağı öyrənir, qazandıqları vərdişləri təkmilləşdirməyə çalışırlar.

Başımı qaldırıb əsgərlərin təlim keçdiyi meydandan qarlı dağların zirvələrinə boylanıram. Bu dağların o üzündə işğal olunmuş torpaqlarımız - Kəlbəcər, Ağdərə... xilaskarlarının yolunu gözləyir. Şərəfli döyüş yolumuz mütləq o doğma yerlərdən keçəcək!

**Mayor**
**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu",**
**foto müəllifindir**

## Müdafiə Nazirliyi başsağlığı verir

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin rəhbərliyi və kollektivi tanınmış ictimai xadim, professor Zahid Qaralovun vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

## Ermənistanın Azərbaycan ərazilərinin işğalını davam etdirməsi regional sülh və sabitlik üçün başlıca təhlükədir

Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etdirilməsi və işğal olunmuş Azərbaycan torpaqlarında Ermənistan silahlı qüvvələrinin mövcudluğu regional sülh və sabitlik üçün ən başlıca təhlükədir.

Bu fikri Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev ABŞ Dövlət Departamentinin sözçüsü Cen Psakinin cəbhə xəttində yaranmış gərginliklə əlaqədar söylədiklərini şərh edərkən bildirib.

H.Hacıyev qeyd edib ki, ABŞ Dövlət Departamenti sözçüsünün də dediyi kimi, tərəflər sülh sazişi üzrə danışıqlarda iştirak etməlidirlər. Amma təəssüf ki, Ermənistan təxribatçı əməlləri ilə hər vəchlə böyük sülh sazişi üzrə işə başlamağa mane olmaq siyasəti yürüdür. Cəbhəboyu zonada yaranan son gərginlik də bunun daha bir bariz nümunəsidir.

XİN-in mətbuat xidmətinin rəhbəri deyib ki, ABŞ Dövlət Departamentinin sözçüsü tərəfindən qoşunların təmas xəttində və Ermənistan-Azərbaycan sərhədində baş verən insidentlərin qarşısının alınmasına da eyham olunur. Rəsmi Bakı dəfələrlə bəyan edib ki, bu kimi insidentlərin baş verməsinin qarşısının alınması və ümumiyyətlə, münaqişənin sülh yolu ilə həlli üçün ilk növbədə Ermənistanın silahlı qüvvələri işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılmalıdır.

**AzərTAc**

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

***6 yanvar 2015-ci il.***

Cəbhənin Ağdam rayonu istiqamətində mina partlaması nəticəsində Şəki rayonunda anadan olmuş 1979-cu il təvəllüdlü Azərbaycan Respublikası Silahlı Qüvvələrinin giziri Məmmədov Şamo Əhməd oğlu yaralanıb.

Yaralı gizirə ilkin tibbi yardım göstərildikdən sonra Silahlı Qüvvələrin Baş Klinik Hospitalına təxliyyə edilib.

Hazırda hərbi qulluqçu həkimlərin tam nəzarəti altındadır. Vəziyyəti stabildir, həyatı üçün təhlükə yoxdur.

***7 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 57 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Krasnoselsk rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Paravakar kəndində yerləşən mövqelərdən Ağstafa rayonunun Köhnəqışlaq, Noyemberyan rayonunun Dovex və Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qaymaqlı və Kəmərli, Berd rayonunun ərazisindəki adsız yüksəkliklərdə və Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi və Əlibəyli kəndlərində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Göyarx, Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Novruzlu, Qaraqaşlı, Cəvahirli, Sarıcalı, Şıxlar, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***8 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 74 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının İcevan rayonunun Berkaber, Noyemberyan rayonunun Barekamavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı və Qaymaqlı, Berd rayonunun Mosesqex kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Qızıl Oba, Goranboy rayonunun Tapqaraqoyunlu, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Novruzlu, Qaraqaşlı, Cəvahirli, Şıxlar, Baş Qərvənd, Şuraabad, Şirvanlı, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Qorqan, Horadiz, Aşağı Seyidəhmədli, Aşağı Əbdürrəhmanlı, kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

***9 yanvar 2015-ci il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 61 dəfə pozulub.

Erməni silahlı bölmələri Ermənistan Respublikasının Noyemberyan rayonunun Dovex kəndində yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Berd rayonunun Ayqepar kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Əlibəyli kəndində yerləşən mövqelərimizi atəşə tutublar.

Tərtər rayonunun Çiləbürt, Ağdam rayonunun Yusifcanlı, Mərzili, Novruzlu, Cəvahirli, Şıxlar, Şuraabad, Sarıcalı, Kəngərli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qaraxanbəyli, Horadiz, Aşağı Seyidəhmədli, Cəbrayıl rayonunun Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Xocavənd və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*20 Yanvar faciəsindən 25 il keçir*

# Şəhidlər verdik, azadlıq qazandıq

***M. Siseronun bir kəlamını xatırlayıram: "Mən ya Vətənimin rifahı üçün yaşamalı, ya da onunla birlikdə məhv olmalıyam". Şəhidlik xalqın yaşam, var olma düsturudu...***




"Gülüstan" müqaviləsi ilə ikiyə bölünmüş xalqımızın azadlıq mübarizəsi yerə-göyə sığışmırdı. İmperiyanın nə gücü-qüdrəti, nə silahı-yarağı, nə cəza üsulları xalqımızın iradəsini sarsıtmağa qadir deyildi, "Yatmış vulkan" (M.Araz) oyanmışdı. Xalq zülm, əsarət buxovunu dağıtmaq üçün ayağa qalxmışdı. İmperiya bu hərəkatı özünə dar ağacı bilirdi.

1990-cı ilin 19 yanvar gecəsi qaranlığın o üzündən bir işıq sızırdı. O işıq xalqın Vətən sevgisiydi, milli heysiyyət nuruydu. Küçələrə axışanlar bu işığın, bu nurun zərrələriydi...

O gecə Azərbaycanımızın sərhədlərinin o üzünə daş ələnməliydi, ələnmədi. Sərhədin bu üzünə güllələr ələndi. O gecə gördüyünü öldürən, bir güllə mənziliycə uzaqda olanları, ağacı, daşı-divarı, ötüb keçən maşınları yaralayan imperiya əlində qırmızı bayraq şəhərimizə girdi. Şəhərə girən kimi də əl-qol açdı, yaraqsız olduğumuzu görüb daha da quduzlaşdı...

İki yüz illik əsarət zənciri qırılmaqdaydı. Xalq azadlıq mücadiləsi üçün Cavanşir hünəriylə, Xətai cəsarətiylə, Cavadxan qeyrətilə ayağa qalxmışdı. Bu axının qarşısını almağa imperiyanın gücü çatmayacaqdı. Axı,

*Zülmün topu var,*
*gülləsi var, qəlpəsi varsa,*
*Haqqın da yenilməz qolu*
*vardır, dönməz üzü vardır!*

Xalq xalq olduğunu zaman anlamında dünəninə dirsəklənib təsdiqləyirdi. Hər ürək bir qəzəb kürəsiydi, hər ürək bir sevgi beşiyiydi. Bu qəzəb imperiyaya ünvanlanmışdı, bu sevgi Vətənin adına ad olmuşdu...

...Küçələr səngərə, barrikadaya dönmüşdü. İmperiyanın gücünü bu səngərlər, bu barrikadalar əngəlləyə bilməyəcəkdi. Bu, sadəcə xalqın imperiya xislətinə, müstəmləkəçiliyə etirazıydı.

Sovet ordusu nələr törətmədi? Yüzlərlə günahsız vətəndaşımız qətlə yetirildi, yaralandı. Yaralılara kömək eləyənlərimiz, "Təcili yardım" maşınlarımız güllələndi. İmperiya xalqımızın milli mücadilə, azadlıq istəyi önündə nə qədər gücsüz olduğunu təsdiqlədi.

Xalqlar həbsxanası olan SSRİ xalqımızın iradəsi qarşısında diz çökürdü. Oğullarımızı, qızlarımızı, həkimlərimizi şəhid eləsə də, diz çökürdü...

19 yanvar gecəsi bu biçim vəhşiliyin üstünü ört-basdır edə bilməyəcəkdi...

Qanlı şənbə gecəsi dünyaya da, tarixə də yumruq göstərdi: "Zamanında qılıncı yağı boynunda itilənən xalqın şərəfli tarixini nədən unutdunuz? Qılınc çalanların qollarını bir müddət zülmlə korşaltmışdınız.

Babəkin qolu o gecə kəsildi, Nəsiminin dərisi o gecə soyuldu. Koroğlu o gecə qocaldı. Cavid o gecə şərə düşdü. Məmməd Əmin o gecə "Azərbaycan!" deyib gözlərini yumdu. O gecə bir daha təsdiqləndi ki, torpaq, uğrunda ölən varsa, Vətəndi...

O gecə atılan 60 min güllə azadlıq hərəkatımızı səksəndirə bilmədi...

O gecə də, o gecəyə ilham verənlər də zaman-zaman lənətlənəcək...

Milli ruhun, milli heysiyyətin imperiya xislətinə meydan oxuduğu o gecədən 25 il keçir. Neçə 25 illər keçsə də, nə o gecə, nə də o hadisədə şəhid olanlarımız unudulmayacaq.

Xəlil Rza Ulutürk deyirdi: Boğmaq mümkün olmayacaq aşıb-daşan ruhumuzu. İmperiya anladı ki, bu xalqın azadlıq istəyini boğa bilməyəcək. Boğa bilmədi də! Şəhidliyimiz azadlıq mübarizəmizin imzası oldu....

O gecənin nələr çəkdiyi sonra bilinəcəkdi, arşını əyilən dünya "ölüm mənimiydi..." deyibən saçını yolan anaları görəcəkdi, üz-gözünə əl atan bacıları görəcəkdi, bağrına daş bağlayıb göz yaşını kirpiklərində donduran ataları görəcəkdi. Hökumət Evindən Dağüstü parkacan çiyinlərdə aparılan şəhidlərimizə qədərsiz ehtiramı da görəcəkdi. Gəmilərin sahilə çırpılan hönkürtüsünü də eşidəcəkdi. Onda dərk edəcəkdi ki, bu millətə zaval yoxdu.

Şəhidlər verdik, azadlıq qazandıq...

**Rəşid FAXRALI,**
**"Azərbaycan Ordusu"**

*Ordu və cəmiyyət*

# Azərbaycan əsgəri ən şərəfli vəzifənin sahibidir



***Ömrümün ahıl dövrünü yaşayıram, neçə illər müxtəlif taleli adamlarla təmasda olmuşam. Mənə elə gəlir ki, cəmiyyətimizdə ən hörmətli peşənin sahibləri hərbçilərdir, çünki onlar müqəddəs bir vəzifənin məsuliyyətini dərindən hiss edirlər. Bir dəfə Müdafiə nazirinin televiziyada söhbətini dinləyirdim. Onda hörmətli nazirimiz Zakir Həsənovun bir sözü çox xoşuma gəlmişdi. Nazir demişdi ki, "Azərbaycan əsgəri bugünkü cəmiyyətimizdə ən yüksək hörmətə və ehtirama layiqdir, çünki ona müqəddəs bir vəzifə - torpaqlarımızın qorunması vəzifəsi etibar edilib". Tamamilə doğrudur, bu gün isti evlərimizdə rahat oturduğumuz bir vaxtda, əsgərlərimiz qarlı-şaxtalı havada gecə-gündüz bilmədən torpaqlarımızın keşiyində dayanırlar.***

Heç yadımdan çıxmaz, 1993-cü ilin bir qış günündə Gədəbəy bölgəsinin düşmənlə təmas xəttini qoruyan hərbçilərimizin yanına getmişdik. Ümumiyyətlə, o vaxt bizdə bir ənənə yaranmışdı, hər dəfə bayramlarda, əlamətdar günlərimizdə rayonun ağsaqqal və ziyalıları, ictimaiyyətin nümayəndələri doğma elimizin keşiyində dayanan döyüşçülərin görüşünə gedərdi. Əslində bu, ordunun şəxsi heyətinə xoş əhval-ruhiyyə aşılayırdı, əsgər hiss edəndə ki, xalqı, dövləti onunladır, onda qorxmaz və məğlubedilməz olur. Bir dəfə Bakı şəhərindən hərbi xidmətə gəlmiş sarışın, enlikürək bir əsgərlə söhbətimdə ona sual verdim ki, bu soyuq dağlarda sənə çətin deyilmi? Əsgər isə tərəddüd etmədən "Bu dağların hər qarışı Vətənimizin müqəddəs bir parçasıdır, onu göz bəbəyimiz kimi qorumaq borcumuzdur”, - demişdi. "Afərin olsun, oğul", - deyib onu bağrıma basdım. Mənə elə gəlir ki, belə iradəli, vətənpərvər döyüşçüsü olan xalq basılmazdır.

Son vaxtlar dövlətimizin rəhbərliyi, şəxsən möhtərəm Prezidentimiz İlham Əliyev Silahlı Qüvvələrin döyüş qabiliyyətinin güclənməsinə ciddi fikir verir. Bu gün qürur duymalıyıq ki, doğma ordumuz günü-gündən inkişaf edir, müasir silah və texnikalar alınır, əsgərlərimizin döyüş səriştəsi artır. Dəfələrlə ordu rəhbərliyini, Müdafiə nazirini, Baş Qərargah rəisini ön xətdə əsgərlər arasında görürük. Artıq dəyərli bir ənənə yaranıb, hər bir bayramda ordunun rəhbər nümayəndələri ön xətdəki hərbi bölmələrə gedərək döyüşçülərin qayğı və problemləri ilə dərindən maraqlanırlar. Bu dəfə də Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində general-polkovnik Zakir Həsənov başda olmaqla Müdafiə Nazirliyinin rəhbər heyəti bütün istiqamətlərdə düşmənlə təmas xəttini qoruyan əsgərləri ziyarət etdi, gənc döyüşçülərə bayram sovqatı verdi. İnanın ki, belə diqqət və qayğını hiss edən döyüşçünün fərəhdən ürəyi dağa dönür, qəlbindəki Vətən sevgisi daha da güclənir.

Fürsətdən istifadə edib gec də olsa, əsgər və zabitlərimizi yola saldığımız bayramlar münasibətilə təbrik edir, hər birinə cansağlığı və uzun ömür, hərbi xidmətlərində uğurlar arzulayıram. Arzum budur ki, Ali Baş Komandanımızın rəhbərliyi ilə tezliklə torpaqlarımız işğaldan azad edilsin və əzəli yurd yerlərimizdə sizinlə birgə bayram keçirmək mənə də nəsib olsun!

**Zahir ƏSGƏROV,**
**Gədəbəy rayonu**



*Təlim*

# Ən çətin hava şəraiti belə əsgərləri məqsədlərindən döndərə bilməz

Qışın ilk günüdür. Kiçik Qafqazın yüksəklikləri çoxdan ağ örpəyə bürünüb. Yolumuz da elə bu yüksəklərdə ermənilərlə üzbəüz mövqe tutan döyüşçülərimizin yanınadır. Uca qağlar qoynunda yerləşən komanda qərargahına yetişmək üçün rayon mərkəzindən xeyli yol qət etməli oldum. Dağlara uzanan dolanbac yollar, nəhayət, bizi hərbi hissənin qərargahına gətirdi. Burada zabit Elşad İsmayılovla görüşüb gəlişimin məqsədini bildirdim. O, tabeliyində olan əsgərlərin döyüş və mənəvi-psixoloji hazırlığı ilə yerində maraqlanmaq, onların döyüş növbətçiliyinin təşkili ilə yaxından tanış olmaq istəyimə lazımi şəraitin yaradılacağını bildirdi. Əlavə etdi ki, bölmələr hər zaman qarşılarında dayanan istənilən döyüş tapşırığını yerinə yetirməyə hazırdır. Bunun üçün əsgərlərə mükəmməl hərbi biliklər aşılayan peşəkar zabitlər var. Onlar həmişə üzərlərinə düşən məsuliyyəti dərindən dərk edirlər.

Zabit D.Əliyevlə artilleriya bölmələrindən birinə gəldik. Dərələr, yamaclar ağ dona büründüyünə görə qışın ilk günü əsgərlərin yadında xoş bir xatirə kimi qalacaqdı. Əsgərlər qışın sərt gəlişinə qəti qorxmurdular. Çünki onların qışa hazırlığı yüksək səviyyədə təşkil olunmuşdu. Beləliklə, döyüşçülər istənilən havada düşmən hücumunun qarşısını alacaq gücə malikdirlər.

Kapitan Namiq Həmidovun komandiri olduğu bölmələrdə də yeni tədris dövrünə hazırlıq gedir. Hər bir heyət yeni minaatan qurğusu ilə təmin olunub. Bu, öz növbəsində əsgərlərin işini xeyli asanlaşdırıb. Heyət komandiri müddətdən artıq xidmət edən hərbi qulluqçu xidmətə başladığı qısa zamanda intizamı və şəxsi bacarığı ilə komandirlərin hörmətini qazanıb.

Müddətli həqiqi hərbi xidmətin on beş ayını yaxın günlərdə başa vuracaq şamaxılı əsgər Ramid Şeydayev ilk gündən bu bölmədə xidmətə başladığını deyir. Baş tuşlayıcı kimi vəzifəsinin öhdəsindən layiqincə gəldiyini bildirən bacarıqlı döyüşçü dəfələrlə döyüş-atışlı təlimlərdə iştirak etdiyini və hədəfləri dəqiq vurmaqla yüksək nəticələr əldə etdiyini söylədi. Əsgərin sözlərinə görə, o, mükəmməl hərbi təcrübəyə malik olan komandirlərinin köməyi sayəsində minaatanın sirlərinə dərindən yiyələnib. Hazırda hamı onu bölmədə bacarıqlı döyüşçü kimi tanıyır.

Digər heyət üzvlərindən Ceyhun Əlizadə, Kamran Məmmədov, Bayram Məmmədzadə müxtəlif vaxtlarda hərbi xidmətə cəlb olunsalar da, təhkim olunduqları silahı incəliyinə kimi öyrəniblər. Əsgərlər şaxtalı və qarlı havada minaatanı çox qısa müddətdə “səfər” və “döyüş” vəziyyətinə gətirdilər. Beləliklə, onlar nəyə qadir olduqlarını bir daha əməli fəaliyyətləri ilə təsdiq etdilər.

Mürəkkəb relyefi və iqlim şəraiti olan bu ərazidə artilleriyaçıların döyüş hazırlığı onu deməyə əsas verir ki, istənilən an onlar verilən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirməyə qadirdirlər. Yaxşı bilirlər ki, erməni işğalı altında olan yurd yerlərimiz mütləq azad olunmalıdır. Buna görə də üzərlərinə düşən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirmək üçün komandirlərin onlara keçdikləri hərbi biliklərə dərindən yiyələnməlidirlər. Məhz bununla da Ali Baş Komandanın döyüş əmrini yerinə yetirməklə əzəli torpaqlarımız yağılardan təmizlənə bilər.

Kapitan N.Həmidovun komandiri olduğu bölmə qarşıya qoyulan istənilən döyüş tapşırığını yüksək səviyyədə icra etməyə qadirdir. Əsgərlərin çevikliyi, onların mükəmməl ixtisas hazırlığı və nəhayət, yetərli biliklərə malik olması bir daha bunu deməyə əsas verir. Döyüşçüləri nə qarlı-şaxtalı hava, nə də mürəkkəb relyef məsuliyyətli döyüş tapşırığının icrasından yayındıra bilməz.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyəti ilə ictimai-siyasi hazırlıq sistemində keçirilən

## II dərs

**Mövzu:** ***Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur.***

*İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu dərsə hazırlaşarkən dünyada və regionda mövcud hərbi-siyasi vəziyyət, Azərbaycan Respublikasının dövlət rəhbərliyinin ölkənin müdafiə qabiliyyətinin yüksəldilməsi sahəsində gördüyü işlər barədə dövri mətbuatda dərc olunan materialları, xidməti fəaliyyəti tənzim edən rəhbəredici sənədləri diqqətlə öyrənməli və öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə alaraq mövzunu bölmənin gündəlik həyatı ilə əlaqələndirməlidir.*

***Suallar:***

***1. Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.***

***2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının borcudur.***

### Hərbi biliklərə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir

Yeni tədris ilində ictimai-siyasi hazırlıq üzrə birinci dərsdə dünyada və regionda yaranmış hərbi-siyasi vəziyyət haqqında dinləyicilərə ətraflı məlumat verilir. Həmin mövzunu bir daha dinləyicilərin nəzərinə çatdıraraq qeyd etmək lazımdır ki, regionda mövcud olan hərbi-siyasi vəziyyət, ilk növbədə Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində yaranmış Ermənistan-Azərbaycan silahlı münaqişəsi, torpaqlarımızın 20 faizinin işğal olunması, 1 milyondan çox soydaşımızın öz doğma ocaqlarından didərgin düşməsi, Azərbaycanın müstəqil xarici və iqtisadi siyasət aparmasının bəzi region dövlətlərinin maraqlarına zidd olması və digər amillər ölkəmizdə ordu quruculuğu işini daha da aktual edir.

“Silahlı Qüvvələr haqqında” Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində göstərilir ki, ordu quruculuğunun əsas prinsiplərindən biri yüksək döyüş hazırlığıdır.

Müasir döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil bir hərbi əməliyyatdır.

Döyüş qələbə qazanmağın yeganə vasitəsidir. Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir.

Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Müasir ümumqoşun döyüşündə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Ümumqoşun döyüşü tanklardan, piyadaların döyüş maşınlarından (zirehli transportyorlardan), artilleriyadan, hava hücumundan müdafiə vasitələrindən, təyyarələrdən, vertolyotlardan, digər döyüş texnikasından və silahlardan istifadə etməklə döyüşdə iştirak edən bütün qoşunların birgə səyi ilə aparılır.

Döyüşün qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi-döyüş keyfiyyətləri, qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır.

1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə, döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur.

Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Azərbaycan ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzən döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını pis bilmələri və ona görə də həmin imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə döyüşlər apara-apara formalaşan Azərbaycan ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi.

1993-cü ildən etibarən Azərbaycanın dövlət rəhbərliyinin ölkənin müdafiə qabiliyyətini yüksəltmək, Silahlı Qüvvələrin döyüş hazırlığını artırmaq üçün apardığı ardıcıl və məqsədyönlü iş bu gün öz bəhrəsini verir.

### Hərb işini vicdanla öyrənmək Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının borcudur

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Respublikasının Silahlı Qüvvələri sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə hərbi and içir. Hərbi and hərbi qulluqçudan Azərbaycan Respublikasının mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə qorumaq üçün hərb işini vicdanla öyrənməyi, əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir. Ümummilli liderimiz Heydər Əliyevin 2002-ci ilin iyun ayında Naxçıvan qarnizonunun şəxsi heyəti ilə görüşərkən dediyi **“Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən”** sözləri bu gün də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, silahını, döyüş texnikası və digər texnikanı yaxşı bilsin.

Bu gün Azərbaycan Silahlı Qüvvələrində olan döyüş texnikası və digər texnika, silahlar və sursatlar ordunun döyüş qabiliyyətini yüksək səviyyədə saxlamağa imkan verir. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycanda ordu quruculuğu prosesini öz diqqət mərkəzində saxlayacağını bəyan edərək demişdir: **“Ölkəmizdə güclü ordu yaradılmışdır və bu proses davam edəcəkdir. Bu məsələ daim mənim diqqət mərkəzimdə olacaqdır”.**

Azərbaycan Respublikası Prezidentinin və Müdafiə nazirinin 2015-ci tədris ili üçün Silahlı Qüvvələr qarşısında qoyduqları əsas vəzifələrdən biri də birləşmələrin, hissələrin və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır.

Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər texnika və silahlara, sursata malikdir. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzu hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırması, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, ərazi bütövlüyünün bərpası və müstəqilliyimizin təmin olunmasında məsuliyyətlərini şüurlu surətdə dərk etməsi üçün planlaşdırılır və keçirilir.

Qrup rəhbəri mövzunu yekunlaşdırarkən dinləyicilərə bir daha ümummilli liderimiz Heydər Əliyevin bu sözlərini xatırlatmalıdır: **“Mən ümidvaram ki, biz ordumuzu gücləndirəcək, döyüş qabiliyyətini yüksəldəcək, müvafiq silahlardan istifadə olunmasının keyfiyyətini artıraraq, dövlətimizi yüksəldəcəyik və ən əsası, Azərbaycanın işğal olunmuş torpaqlarının azad edilməsi gününü yaxınlaşdıracağıq və Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini mütləq təmin edəcəyik”.**

**Müdafiə Nazirliyi**
**Mənəvi-Psixoloji**
**Hazırlıq və İctimaiyyətlə**
**Əlaqələr İdarəsi**

Tarix

# Ermənilərin Qarabağda məskunlaşma tarixi haqqında



Ermənilərin Qarabağa gəlişi, yerləşdirilməsi XIX əsrin əvvəllərinə təsadüf edir. Rusiya Qafqazı əldə etmək planlarını həyata keçirməyə başlayanda ilk olaraq Qarabağa sahibləndi. Qarabağ xanı İbrahim xanla Rus qoşunlarının komandanı R.Sisianov arasında Kürəkçay müqaviləsi bağlandı. Bu müqavilə Qarabağın işğal fərmanı oldu. Ermənilər bu mövzudan bəhs edərkən unudur ki, Qarabağ Rusiyaya məhz türk-müsəlman ölkəsi kimi birləşdirildi. Çar Rusiyası bu bölgəni də, Azərbaycanın digər ərazilərini də işğal etməklə onu əbədi rus torpağı etmək istəyirdi. Bölgəni əldə saxlamağın məqbul yollarından biri buraya erməni əhalini köçürmək idi. 1928-ci ildə Rusiya-İran arasında bağlanan "Türkmənçay" müqaviləsindən sonra ermənilərin Qarabağa köçürülməsi kütləvi xarakter aldı. 1829-cu ildə Ədirnə müqaviləsindən sonra ermənilər Osmanlı ərazilərindən Qarabağ və İrəvan xanlığının ərazilərinə də köçürülməyə başladılar. Təkcə bu müqaviləyə əsasən, Qarabağ və digər ətraf ərazilərə 84 min erməni köçürüldü. 1988-ci ildə Dağlıq Qarabağın Ağdərə (Mardakert) rayonunun Marağa kəndinə ermənilər köçürülmələrinin yubileyini - 150 illiyini keçirmişdilər. Orada üzərində "Marağa -150" sözləri həkk olunmuş bir daş abidə də ucaldılmışdı.

Bu fakt da təsdiqləyir ki, Qarabağda ermənilərin məskunlaşma tarixi vur-tut 150 il idi. Qarabağın erməniləşməsi rus imperiyasının planı olub. Bunu tarixi sənədlər də sübut edir. 1783-cü ilin 19 mayında knyaz A.Patyomkinin II Yekaterinaya yazdığı məktubda knyaz çariçanı ehtiyatlandırır və "Qarabağı ermənilərin idarəsinə verməklə Asiyada xristian bir dövlət qurmağın" faydalı olacağından bəhs edirdi. 1828-ci ildən sonra kütləvi erməni köçü Rusiyanın hələ daha əvvəl müəyyən olunmuş hərbi doktrinasının tərkib hissəsi idi və 1828-1830-cu illər arasında qeyri-rəsmi olaraq 200 mindən çox erməni köçürülüb yerləşdirilmişdi. Görkəmli alim N.Şavrov 1911-ci ildə yazırdı ki, "Zaqafqaziyadakı 1,3 milyon erməninin 1 milyondan çoxu gəlmədir. Bu köçürmələrə baxmayaraq ermənilər yenə də çoxluq təşkil etmirdi. Burada əhalinin faiz nisbəti belə idi: 64,4% müsəlman-türk, 34,8% erməni. Qarabağda o zaman yerli xristianlar da, o cümlədən albanlar da yaşayırdılar. Ermənilər bu əhalini, əsasən də albanları öz içərilərində zaman-zaman əridib yox etdilər. İndi də burada qriqoryanlaşmış və erməniləşmiş albanlar yaşamaqdadırlar, onlar bu və ya digər səbəblərdən milli kimliklərini ortaya qoya bilmirlər. Ermənistanın keçmiş prezidenti R.Koçaryanın bir televiziya müsahibəsində alban olduğunu dilə gətirməsi təsadüfi deyil.

Böyük Amerika alimi yazılarında erməni kaloniyalarının yaradılması haqqında bunları demişdir:

"1828 və 1920-ci illər arasında yerlərdə əhalinin demoqrafik tərkibini ermənilərin xeyrinə dəyişmək siyasəti nəticəsində iki milyondan çox müsəlman məcburi olaraq yaşadıqları ərazilərdən sürgün edilmiş və dəqiq məlum olmayan sayda insan isə qətlə yetirilmişdir… Ruslar iki dəfə - 1828 və 1854-cü illərdə Şərqi Anadoluya hücum etmiş, lakin hər iki halda geri çəkilməyə məcbur olmuşlar. Geri çəkilərkən onlar özləri ilə 100000 ermənini də Qafqaza gətirmiş, yurdlarından qovulmuş və məhv edilmiş türklərin (azərbaycanlıların) yerlərində yerləşdirmişdilər".

1877-1878-ci illər müharibəsində, ruslar Qars-Ərdahan vilayətini zəbt etmiş, müsəlmanları qovaraq onların yerində 70000 erməni məskunlaşdırmışdılar. 1895-1896-cı illərin hadisələrində isə təxminən 60000 erməni Qafqazda məskun edilmişdir. Birinci Dünya müharibəsi illərində miqrasiya balanslı şəkildə davam etmiş, Şərqi Anadoludan olan 400000 erməni Qafqazın 400000 müsəlman əhalisinə dəyişdirilmişdir.

Amerika akademikinin göstərdiyi rəqəmlərə görə, 1828 və 1920-ci illər arasında Azərbaycana 560000 erməni köçürülmüşdür. Bununla da Şərqi Qafqazın ruslar tərəfindən işğalı nəticəsində Azərbaycan torpaqlarında - Araz çayının şimalında erməni əhalisi sürətlə artmağa başladı. Bununla bağlı diqqətəlayiq bir faktı da qatı erməni millətçisi Z.Balayanın özü etiraf etmişdir: "Onun (Yerevanın) əhalisi başqa yerlərdən gəlmələrdir. Əslində həqiqi yerevanlı yoxdur". Akademik A.İonisyan da yazır ki, "Yerevan şəhərinin əhalisinin yalnız dörddə biri ermənilərdir, azərbaycanlılar burada mütləq üstünlük təşkil edir".

Ərazilərinin genişləndirilməsi məqsədini güdən ermənilər 1836-cı ildə rusların köməyi ilə Azərbaycanda o zaman fəaliyyət göstərən Alban Patriarxat kilsəsinin ləğv olunmasına və onun mülklərinin erməni kilsəsinə verilməsinə nail oldular. Bir qədər sonra keçmiş Alban dövlətinin qərb əraziləri, daha dəqiq desək, Qarabağ regionu ermənilərin XIX əsrdə davam edən sıx məskunlaşması nəticəsində dövlətçiliyini və dini müstəqilliyini itirdi, həmin yerlərin əhalisinin qreqoryanlaşdırılması yəni, erməniləşdirilməsi prosesi başlandı.

Bu açıq həqiqət hələ XIX əsrdə bəlli idi. Məşhur rus tarixçisi V.Veliçko yazırdı: "Səhvən erməni adlandırılan, əslində isə erməni-qreqoryan təriqətini qəbul edən və yalnız üç-dörd əsr əvvəl erməniləşmə prosesinə qədəm qoyan əhali müstəsnalıq təşkil edirdi". Bunu erməni müəllifi B.İşxanyan da təsdiq edərək yazırdı: "Dağlıq Qarabağda məskunlaşmış ermənilərin bir qismi yerli olub qədim Alban xalqının nəsilləri, bir qismi isə Türkiyə və İrandan qaçmış və Azərbaycan torpaqlarında təqib və təzyiqlərdən sığınacaq tapmış erməni əhalisidir".

1828-ci ildən, Türkmənçay müqaviləsinin bağlanmasından sonra erməni əhalinin Qarabağa, İrəvana və digər Azərbaycan xanlıqlarının ərazilərinə köçürülməsinə birbaşa rəhbərlik etmiş rus diplomatı, şair A.Qriboyedovun bir məktubu da dediyimiz bu tarixi faktları sübut edir:

"Alihəzrətinizə ermənilərin Persiyadan köçürülməsi üçün tətbiq edilən üsullar haqqında və onların indi bizim vilayətlərdə yerləşdirilməsi barədə mənim vasitəmlə daha mötəbər məlumat almağınız lazımdır. Həmin predmet üzrə mənə məlum olan həqiqət budur: polkovnik Lazarev özünü bu mühacirliyin əsas təşviqedicisi saymışdır, bu barədə, bizə məlum olduğu kimi, o, kifayət qədər aşkar, lakin əsassız fikrini izah etmişdir, ona görə ki, onun barədə ermənilərin heç bir anlayışı yox idi, onlar təkcə Rusiyaya etibar etməklə və onun qanunları altında olmaq arzusu ilə hərəkət edirdilər. Traktat onlara bunun üçün tam hüquq verirdi. Köçürülmə zamanı fəal vasitəçilər knyaz Arqutinski, Qamazov olmuşlar, tabelikdə olan digər zabitlər isə artıq onların təsiri altında hərəkət edirdilər. Polkovnik Lazarev yalnız olduqca yersiz proklamasiyalar (bəyannamələr) uydurulması barədə, nizami erməni könüllü qoşunları formalaşdırılması barədə düşünürdü, hərçənd xoş niyyətlə, lakin düşünmədən, hətta öz rəhbərliyinə malik Qarabağın özünü və digər vilayətləri öz niyyətləri dairəsinə daxil etməyi fikirləşirdi ki, oralarda çoxdan təsis edilmişlərdən olanlara xüsusi səlahiyyət verilə bilməzdi. Knyaz Arqutinski bir neçə dəfə ona rəftarı barədə, onun necə lovğa, yüngül və faydasız olması barədə göstərmişdir. Polkovnik Lazarevin bütün başqa işləri də bu cür olmuşdur və onlar barədə geniş danışmağa dəyməz. Yalnız onu əlavə etmək lazımdır ki, o, mənasız adamdır, lakin pozğun deyil, dövlət pullarını xəlvəti mənimsəmək və qəsdən zərər vurmaq qabiliyyətli deyil. Urmiyadan gəlmələrə pul müavinəti paylanarkən bir çox qarışıqlar baş vermişdi, lakin suiistifadə olmamışdı: yoxsullara az, varlılara çox verilmişdir. Bu bizim qoşunların həmin əyaləti tələsik tərk etdiyinə görə baş vermişdi. Tələsərək araşdırmadan hərəkət etmişdilər və odur ki, pullar az kömək etdi, çünki pis paylanmışdı. Bu, söz gəlişi, mənə məlum olan yeganə hadisədir. Köçürülmə zamanı belə olmuşdur, lakin onların bizdə yeni yerlərdə yerləşdirilməsi zamanı isə hər şey mənasız, fərsiz və bağışlanılmaz edilmişdir. Onları idarə etmək üçün komitet təsis edilmişdir, o, heç şeydən xəbərdar olmamış və xüsusən məzəmmətə layiqdir ki, alihəzrətinizdən onun bu halda necə hərəkət etməsi barədə ən dəqiq və ətraflı təlimat almışdı:

1. Ermənilərin çox hissəsi müsəlman mülkədarlarının torpaqlarında məskunlaşdırılmışdır. Buna hələ yayda yol verməmək olardı. Torpaqların sahiblərinin, müsəlmanların çox hissəsi köç düşərgələrində olmuşlar və başqa dinli yad gəlmələrlə əlaqə saxlama halları az olmuşdur.

2. Ağac (odun) tədarük edilməmişdir və köçürülmələrin möhkəm yerləşdirilməsi üçün digər yerlər ayrılmamışdır. Bütün bunlar vaxtında əldən verilmişdir. Bu il üçün səhvi düzəltmək gecdir. Köçürülənlər özləri darısqallıqdadırlar və müsəlmanları sıxışdırırlar, onlar isə əsaslı narazılıq edirlər. Alihəzrətinizə məlumdur ki, ümumiyyətlə, buradakı sakinlərin hamısı birlikdə köçkün hesab edilməlidir, çünki onların hamısı sərdar tərəfindən müharibə vaxtı köçürdülmüşlər və ən kasıb vəziyyətdədirlər.

3. Dövlət pul yardımları tamamilə ağılsız paylanmışdır: ehtiyacı olanların sayı və kimə nə qədər lazım olması barədə doğru məlumat olmadan, dilənçilər kimi, hər nəfərə bir, iki rubl paylamışlar. Birdəfəlik verilən 25 rubl müxtəlif vaxtlarda hissə-hissə verilən məbləğdən on dəfə əhəmiyyətlidir. Heç bir ümumi tədbir, məsələn, bütöv cəmiyyətin saxlanması üçün, habelə gələn ilin əkini üçün taxıl alınması və digərləri kimi tədbirlər görülməmişdir. Alihəzrətinizə köçürmə komitəsinin dəyərsiz hərəkətlərini göstərməklə, mən ədalət naminə qeyd etməliyəm ki, əgər orada indi heç olmayan qabiliyyətli adamlar da otursaydılar, onlar da böyük çətinlik çəkərdilər. Vilayət idarəsində hətta hələ Arazın o tərəfindəki torpaqların və kəndlərin səthi siyahısı da yoxdur. Arazın bu tərəfindəki mahallarda da hələ sakinlərin sayı məlum deyil. Malikanələr barədə heç deyiləsi deyil: kimə nə məxsus olmasını heç kim bilmir.

Beləliklə, komitə istifadə etməli olduğu lazımi məlumatları heç yerdən ala bilməmişdir. Buradakı vilayət rəisi deyir ki, o, yeni gəlmiş ermənilərin çoxunu Arazın o tərəfinə köçürmək istəyirdi, lakin onlar alihəzrətinizdən ilk dəfə onları yerləşdirdikləri yerlərdə qalmağa icazə verməyi xahiş etmişlər və buna sizin razılığınızı almışlar. Lakin podpolkovnik knyaz Arqutinski həmin tədbirin yerinə yetirilməsinin mümkün olacağından ümidini itirmir. Bu məmur özünün idarəetmə bacarığına və sədaqətliliyinə görə rəhbərliyin tam etimadına layiqdir. 30 min rubl gümüşlə və 2 min qızıl əşrəfi yenidən köçürülənlərə yardım üçün təyin edilmişdir, artıq xeyli tələbkarlıqla istifadə ediləcəkdir. Əgər alihəzrətiniz ən yaxın vaxtda həmin predmet üçün daha iki o qədər buraxmaq qərarı versəniz, göstərilən gəlmələrin rifahını tamamilə sabitləşdirərdiniz. Yalnız yardım tələb edənlərin sayını buyurun düşünməyə qəbul edin ki, onların hamısı vaxtilə xəzinəyə vergi ödəyəcək. Rusiyada bu sayda adamların orta vergi qiymətilə müqayisə edin və alihəzrətinizin bu işə verdiyi bütün məbləğ onun gətirməli olduğu fayda ilə müqayisədə nəinki mötədil, hətta cüzi görünəcəkdir. Bilmirəm, alihəzrətinizə həmin iş məhz bu nöqteyinəzərdən təqdim edilmişdirmi və siz onu bəyənəcəksinizmi.

Yardımın xəzinədən heç bir xərc tələb etməyən daha bir mühüm mənbəyi sərdar mal-qarası ola bilər, o, hazırda 30 min ədədə qədərdir, vaxtilə sərdar tərəfindən sakinlərə vergi öhdəliyi kimi saxlamaq üçün paylanmışdı. O, sahibkar kimi onlardan öz növbəsində yağ, yun, bala artımını və başqalarını alırdı. Həmin mal-qaranın mövcud olması barədə mən çoxlarından eşitmişəm və vilayət idarə heyətinin üzvləri Petrikovdan və Mendoksdan qəti yəqin etmişəm. Həmin sərdar təsərrüfatını davam etdirmək xəzinə üçün səmərəli deyil və bizim inzibatçılığımızda sadəcə mümkünsüzdür, əsgərlərə yemək üçün paylamaq isə biryolluq sərf etmək deməkdir; lakin həmin mal-qaranın köçkünlərə paylanması onların təsərrüfatını hiss olunacaq dərəcədə artırar və yaxşılaşdırar. Mən kənardan nə qədər çalışdımsa da və məhz bunun üçün hədsiz qabiliyyətli olan tərcüməçim Dadaşev vasitəsilə, bu məqsədlə onu keçib getdiyimiz kəndlərdə, Eçmiədzində, burada adamlardan soruşmağa məcbur etməklə pulların paylanması zamanı hansısa sui-istifadələr olması barədə öyrənim, heç kim bu barədə şikayət etmədi və o, həqiqətən olmamışdır. Vilayət rəisinin tərcüməçisi Mirzə Tatus tanınmış fırıldaqçıdır, lakin ona bu iş barədə heç bir tapşırıq verilməmişdir; eynilə onun qardaşı, Sürməli mahalının rəisi də belə hamının tanıdığı yaramazdır, indi mən onun barəsində söz gəlişi xatırladıram, lakin köçürülmə zamanı o da heç nəyə qarışmamışdır. Gəlmələrin yerləşdirilməsinə indi rəhbərlik edənlərin, xüsusilə knyaz Arqutinskinin səylərindən çox şey gözlənməlidir; artıq o, yəqin ki, öz sələfi mayor Vladimirovun səhvləri səviyyəsinə düşməyəcək. Biz onunla həmçinin müsəlmanları necə inandıracağımız barədə çox düşünürdük ki, onları indiki sıxıntılarla (çətinliklərlə) barışdıraq və inandıraq ki, bu uzunmüddətli olmayacaq və ermənilərin ilk dəfə buraxıldıqları torpaqları həmişəlik zəbt edəcəkləri barədə onların (müsəlmanların) qorxusunu aradan qaldıraq. Bu barədə mən polismeysterə, idarə heyəti üzvlərinə və burada mənim yanımda olmuş xanlara da demişəm. Əgər alihəzrətiniz Tiflis dövlət ekspedisiyasına buraya bir neçə məmur göndərməsini tapşırsanız, həqiqi xeyirxahlıq edərsiniz.

Burada iş görməli olan heç kim, hətta mirzə, həmçinin tərcüməçilər yoxdur. Mən belə düşünürəm ki, bunun üçün Tiflisdəki erməni məktəbindən bir neçə şagird seçmək olardı. Yenə də köçürülənlərə qayıdaraq, mən hesab edirəm ki, onlar bizim Gürcüstan ermənilərindən, ümumiyyətlə, xəzinəyə heç bir fayda verməyən alverçilərdən xeyli faydalıdırlar, Persiyadan (İrandan) köçənlərin isə çox hissəsi sənətkarlar və əkinçilərdir".

**Qafar ÇAXMAQLI,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru**

## Unutmayaq!

***1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*

***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*

***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*

***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*

***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*

***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*

***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*

***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*

***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

### Lionel Messinin qiyməti 220 milyon avrodur



Fransada yerləşən idman tədqiqatları mərkəzi Avropanın ən bahalı 120 futbolçusunun siyahısını dərc edib.

AzərTAc İnterfax informasiya agentliyinə istinadla xəbər verir ki, siyahıya "Barselona" klubunun hücumçusu Lionel Messi başçılıq edir. Onun dəyəri 220 milyon avro məbləğində qiymətləndirilir. İkinci yeri 133 milyon avro ilə "Real"ın hücumçusu Kriştianu Ronaldu, üçüncü yeri 99 milyon avro ilə "Çelsi"nin yarımmüdafiəçisi Eden Hazard tutur.

Oyunçuların qiyməti bir çox göstəricilər üzrə, o cümlədən keçirilən oyunların və vurulan qolların sayına görə hesablanır.

### Hacı Əliyev reytinqdə birincidir



Dünya Güləş Birliyi (UWW - United World Wrestling) 2014-cü ilin yekunlarına görə, sərbəst güləş üzrə Yeni ilin ilk reytinq siyahısını açıqlayıb. AzərTAc xəbər verir ki, sərbəst güləşçilərimizdən 11 nəfəri Dünya Güləş Birliyinin reytinq siyahısında öz yerlərini tutub.

Ən yüksək göstərici isə dünya çempionu Hacı Əliyevə (61 kq) məxsusdur. Daşkənddə öz çəki dərəcəsində bütün rəqiblərindən üstün olan Hacı Əliyev reytinqdə də liderliyini davam etdirir. Dünya çempionatının gümüş mükafatını qazanan Xetaq Qazyumov (97 kq) isə reytinqdə ikincidir.

### Azərbaycan boksçularının növbəti rəqibləri dəqiqləşib

Yanvarın 23-də və 24-də AİBA Pro Boxing (APB) turnirində növbəti görüşlər keçiriləcək. Boks Federasiyasından apasport.az saytına verilən məlumata görə, ilk yarış günündə superağır çəki dərəcəsində mübarizə aparan boksçular rinqə çıxacaq.

İkiqat dünya, Avropa çempionu, London Olimpiadasının bürünc mükafatçısı Məhəmmədrəsul Məcidov bu dəfə Maqomed Omarovla üz-üzə gələcək.

Milli komandamızın üzvü Tamerlan Abdullayev bu dəfə litvalı Eimantas Stanionislə görüşəcək.

Hesabında iki qalibiyyət olan boksçularımız üçüncü qələbəni qazanaraq, Braziliya Olimpiadasına lisenziya uğrunda mübarizə apara bilərlər.

### Azərbaycan çempionatında 150-dən çox boksçu mübarizə aparır

Yanvarın 8-də Şağan Olimpiya İdman Kompleksində böyüklər arasında boks üzrə Azərbaycan çempionatına start verilib.

AzərTAc xəbər verir ki, yarışda respublikamızın müxtəlif şəhər və rayonlarının komandalarını təmsil edən 150-dən çox idmançı iştirak edir. Lakin milli komandamızın bir çox aparıcı boksçuları ölkə çempionatına qatılmayacaq. Onların bəziləri "Baku Fires" klubunun heyətində WSB liqasının yeni mövsümünə hazırlaşırlar. Cavid Çələbiyev (56 kq), Tamerlan Abdullayev (69 kq) və Məhəmmədrəsul Məcidovu isə (91 kq-dan yuxarı) AİBA Pro Boxing turnirində növbəti görüşlər gözləyir.

### "Neftçi" Rauf Əliyevi transfer etdi



"Neftçi" futbol klubu Azərbaycan yığma komandasının üzvü, hücumçu Rauf Əliyevlə müqavilə bağlayıb. Futbolçu növbəti il yarım müddətində "Neftçi"nin formasını geyinəcək.

Rauf Əliyev komandaya keçidi ilə bağlı fikirlərini bildirib: "Neftçi" Azərbaycan futbolunun ən köklü komandasıdır. İstənilən yerli futbolçu üçün "Neftçi"də oynamaq şərəfdir. "Neftçi"nin heyətində özümü doğrultmaq və komandama faydalı olmaq istəyirəm. Mən milli komandanın da üzvüyəm. Ona görə də çalışacağam ki, "Neftçi"də bacardığım qədər yaxşı çıxış edərək, yığmamıza da faydalı olum".

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# İstanbulda keçirilən beynəlxalq simpoziumda qondarma "erməni soyqırımı"na dair həqiqətlərdən bəhs edilib

***İstanbul Universitetində "XIX və XX əsrlərdə türk - erməni əlaqələri" mövzusunda keçirilən beynəlxalq simpoziumda Azərbaycan, Türkiyə, İran, ABŞ, Rusiya, Polşa və digər ölkələri təmsil edən alimlərin qondarma "erməni soyqırımı" ilə bağlı həqiqətlərdən bəhs edən çıxışları dinlənilib.***

Alimlərdən Tofiq Mustafazadə, Musa Qasımlı, Xəlil Bal, Firdovsiyə Əhmədova, İradə Məmmədova, Məsumə Daei və başqaları uydurma "erməni soyqırımı" iddialarının siyasi müstəviyə gətirilməsinin səbəb və nəticələrindən, erməni millətçi dairələri və din xadimlərinin təşkilatçılığı ilə Ermənistan silahlı birləşmələrinin XX əsrin əvvəlində Osmanlı dövləti, Qafqaz bölgəsi və indiki İran ərazilərində günahsız müsəlman əhaliyə qarşı törətdikləri soyqırımı aktlarından söhbət açıblar.

Alimlər diqqətə çatdırıblar ki, hər zaman Azərbaycanda və Türkiyədə qonaqpərvər münasibət və humanistlik görən ermənilər tarixin bütün dövrlərində kənar qüvvələrin təhriki ilə xalqlarımıza qarşı xəyanət yolu tutublar.

Tarixi faktlar və arxiv sənədləri əsasında hazırlanmış məruzələrdə əsaslandırılıb ki, XX əsrin əvvəllərində ermənilərdən Osmanlı dövlətinə qarşı istifadə edən böyük dövlətlər müasir dövrdə işğalçı Ermənistandan və erməni millətçi dairələrindən Azərbaycana və Türkiyəyə qarşı siyasi alət kimi istifadə etməkdədirlər.

Mənəviyyat

# Əsgər dostluğu möhkəm olur

***Dost sözü milli mentalitetimizin ən dəyərli kəlmələrindən biridi. Bu sözün məna dərinliyinə varanda görürük ki, burada çoxlu ibrətamiz fikirlər yer alıb. Bunlardan yalnız biri, müdriklərin dediyi, - Dost dar gündə tanınar, - deyimi günümüzün reallığını daha çox əks etdirir. Hər kəs istəyir ki, sədaqətli, iradəli dostları olsun.***



Dost qazanmağın bir yolu da əsgərlikdən, hərbi xidmətdən keçir. Çox təqdirəlayiq haldır ki, bu gün cəmiyyətimizdə əsgərlik dövrünün dəyərli dostlarına rast gəlmək mümkündür.

Cəbhə xəttindən bir qədər aralı, ehtiyatda yerləşən bölmələrdən birindəyəm. Nahar fasiləsi zamanı istirahət guşəsində iki əsgərin şirin söhbət etdiyi diqqətimi çəkdi. Əslində bütün əsgərlər asudə vaxtlarında bir yerdə olur, olub keçənlərdən, təlimlərdən söz açırlar. Çox keçmir ki, diqqətimi çəkən əsgərlərlə görüşüb tanış oluram.

- Əsgər Sənan Abbasov, - deyə onlardan biri özünü hərbi qaydada təqdim edir. Sonra onun silahdaşı Etibar Həmidov əsgəri intizamı nümayiş etdirir. Hər ikisi olduqca şən və gülərüz görünür. Onların xoş, səmimi münasibətləri əsl dostluq nümunəsi idi. Hər iki əsgər müqəddəs ordu həyatının çətin anlarını birgə yaşayıb. Ən azından çöl-səhra təlimlərində bir yerdə olublar, çətinliyə, əziyyətə birgə qatlaşıblar. İndi əsgərlərin çöhrəsindəki sevinci görəndə o çətin anların əlamətini hiss etmədim.

Əsgərlərlə söhbətim olduqca səmimi alındı. Öncə hansı bölgədən olduqları ilə maraqlandım.

Məlum olur ki, onlar fərqli məkanda dünyaya gəlib boya-başa çatıblar. Sənan Abbasov Bakı şəhərində anadan olub. Bakı Dövlət Universitetini bitirib. Hərbi xidməti başa vurandan sonra magistr pilləsində təhsillini davam etdirmək arzusundadır.

Əsgərlik həyatına gəlincə Sənan deyir ki, bu kişilik, mərdlik məktəbidir. Altı aylıq xidməti dövründə çoxlu dostlar qazanıb. Əsgər onu da əlavə etdi ki, hərbi xidmət həm də insanın xarakterini öyrənmək üçün ən münasib yerdi. Digər sahələrdən fərqli olaraq burada insanı daha tez tanımaq olur.

Hazırda əsgər yoldaşlarının xoş davranış və səmimi münasibətləri də onların eyni amala, Vətənə, millətə bağlı olmasından irəli gəlir. Çünki yaxşı bilirlər ki, torpaqlarımızın 20 faizi erməni işğalı altındadır. Dədə-baba torpaqlarımızın yağı tapdağından azad edilməsi üçün onlar komandirlərin rəhbərliyi ilə hərbi biliklərə mükəmməl yiyələnir, döyüş vərdişlərini dərindən əxz etməyə çalışırlar. Silahların taktiki-texniki xassələrini dərindən öyrənirlər, dəqiq istifadə etməyi bacarırlar.

Əsgər Etibar Həmidov isə deyir ki, boş vaxtlarında silahlardan, nizamnamələrdən sual-cavab edirlər. Bu da gördüyümüz kimi əsgərlərin hərbi biliklərini daha da təkmilləşdirməsinə yol açır. Əslən Göyçay rayonundan olan Etibar bir qədər əvvəl öyrəndiyi silahlarla bağlı mövzunu dostu Sənanla müzakirə etdiyini deyir.

Təlimdən sonra bu cür müzakirələr, fikir aydınlığı, söz yox ki, əsgərləri möhkəm dostluğa bağlayan ilk tellərdi. Onlar hərbi xidmət dövründə əldə etdikləri dostluq münasibətlərini mülki həyatlarında sonadək davam etdirəcəklərini bildirdilər.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Vahid MƏHƏRRƏMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 2
Nüsxə 4300